# "PARA" Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti

( Bu emissiya prospektində olan məlumatlar "Qiymətli Kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıqlanmışdır.)

**Hər birinin nominal dəyəri 1000 (bir min) AZN olan 5,000 (beş min) ədəd faizli, sənədsiz, təmin edilməmiş, adlı istiqrazların**

## EMİSSİYA PROSPEKTİ

## <u>MÜNDƏRİCAT</u>

*Səhifə*

*Xülasə*........ *4*
*Emitent haqqında məlumat*........ *5*
*Qiymətli kağızlar haqqında məlumat*........ *12*
*Risk faktorları*........ *14*
*Təklif*........ *15*
*İstiqrazlar barədə tələb olunan məlumat*........ *31*
*İstiqrazlar barədə məlumat*........ *31*
*Təklifin şərtləri*........ *33*
*Ticarətə buraxılma və onun tənzimlənməsi*........ *35*
*Kredit reytinqləri*........ *36*

**Hər birinin nominal dəyəri 1000 (min) AZN olan 5,000 (beş min) ədəd faizli sənədsiz, təmin edilməmiş, adlı istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

Bakı 2018

# XÜLASƏ

Bu sənəd emissiya prospektinin giriş hissəsidir.

İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar verməzdən əvvəl bu emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir.

Bu Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## Əsas anlayışlar

- *Anderraytinq* – emitentin və ya üçüncü şəxslərin xeyrinə qiymətli kağızların kütləvi təklifi və yerləşdirilməsi üzrə investisiya xidməti;
- *Emitent* – İstiqrazların emissiyasını həyata keçirən hüquqi şəxs.
- *İnvestor* – qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin alıcısı və ya onları almaq təklifini verən şəxs;
- *Qiymətli kağızlar bazarı* – qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, mülkiyyətçiliyi, saxlanılması, kompensasiyası, öhdəliklərlə yüklənməsi, dövlət tənzimlənməsi və digər əməliyyatların həyata keçirilməsi üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusu.

# Emitent haqqında məlumat

**1.1 Emitentin tam adı:** “PARA” Bank Olmayan Kredit Təşkilatı Açıq Səhmdar Cəmiyyəti

**1.2 Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, AZ1022, Bakı şəhəri, Nəsimi Rayonu, Səməd Vurğun, ev 60, Açıq Səhmdar Cəmiyyəti

**1.3 Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyalar:**
Şirkətin əsas fəaliyyəti kommersiya kreditlərinin verilməsidir. Son iki devalvasiya və iqtisadi durğunluq emitentin maliyyə nəticələrinə təsir göstərə bilər. Şirkətin borcalanlarıda maliyyə və iqtisadi mühitdə baş verən hadisələrdən zərər çəkə bilər.

**1.4 Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitentin 0.0036% “AZƏRTİKİNTİSERVİS” ASC-də iştirak payı mövcuddur.

**1.5 Gəlir prognozu:** Əlavə olunub

**1.6 Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:**
Hazırki maliyyə hesabatları 31 dekabr 2016-cıvə2017-ci il tarixinə Şirkətin maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**1.7 Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir:**

| AZN | 2017 | 2016 | 2015 |
|---|---|---|---|
| Cəmi aktivlər | 85 446 140.94 | 126 582 551.60 | 170 627 064.43 |
| Cəmi passivlər | 64 548 343.47 | 94 529 931.59 | 124 465 483.75 |
| Ümumi kapital | 20 879 797.47 | 32 052 620.01 | 46 161 580.68 |
| Gəlir (zərər) | -10 562 713.96 | -8 981 196.10 | 2 165 021.56 |

**1.8 Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr:**
Şirkətin əsas fəaliyyətlərindən biri kommersiya kreditlərinin verilməsidir. Son iki devalvasiya və iqtisadi durğunluq emitentin maliyyə nəticələrinə təsir göstərə bilər. Şirkətin borcalanlarıda maliyyə və iqtisadi mühitdə baş verən hadisələrdən zərər çəkə bilər. Həmçinin emitentin bankdan bank olmayan kredit təşkilatına çevirilməsi bəzi çətinliklərin yaranmasına gəlib çıxarda bilər.

**1.9 Emitentin əsas fəaliyyətlərinin təsviri**:

Emitent aşağıda qeyd olunan fəaliyyəti həyata keçirir:
- təminatlı və təminatsız kreditlərin verilməsi;
- borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- lizinq;
- veksellərin uçotu;
- qarantiyanın verilməsi;
- sığorta agenti xidmətinin göstərilməsi;
- borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.öz vəsaiti və ya cəlb edilmiş vəsait hesabına (depozitlər istisna olmaqla)

**1.10 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətinin xüsusiyyəti:**
Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarət və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlər qanunvericilik çərçivəsində həyata keçirilir.

Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm – bir səsdir" prinsipi əsasında həyata keçirilir. Qanunvericiliklə və Emitentin Nizamnaməsi ilə nəzərdə tutulmuş bəzi məsələlər müxtəlif səs çoxluğu ilə həll olunur. Belə ki, Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı səsvermə hüququ olan səhmlərin azı 5 (beş) % faizinin sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və ya İdarə Heyətinin tələbi ilə çağrıla bilər.

**1.11 Emitentin tam adı, təşksıilati-hüquqi forması:** "PARA" Bank Olmayan Kredit Təşkilatı, Açıq Səhmdar Cəmiyyəti

**1.12 Emitentin dövlət qeydiyyatının rekvizitləri:** VÖEN: 9900004121

**1.13 Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:**
Emitentin təşkilati-hüquqi forması dəyişilməmişdir.

2 dekabr 2016-cı il tarixində "Parabank"ASC adını və fəaliyyət növünü dəyişərək "PARA" BOKT ASC kimi yenidən dövlət qeydiyyatına alınmışdır.

**1.14 Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**

Hüquqi ünvan: Azərbaycan Respublikası, AZ1022, Bakı şəhəri, Nəsimi Rayonu, Səməd Vurğun, ev 60, Açıq Səhmdar Cəmiyyəti

Faktiki ünvan: Bakı şəhəri, Səməd Vurğun, ev 60

Elektron poçt ünvanı: office@parabokt.az
Internet səhifəsi: http://www.parabokt.az
Əlaqə telefonları: +994 12 139

**1.15 Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən Cəmiyyət tərəfindən investisiyalar olmayıb.

**1.16 İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:**

Hal-hazırda idarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri mövcud deyil.

**1.17 Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat**:

"Bakı Fond Birjası" QSC - fond birjası fəaliyyəti üçün lisenziyaya malik olan, fəaliyyətinin müstəsna predmeti tənzimlənən bazarların təşkili və idarə edilməsi olan, səhmdar cəmiyyəti formasında yaradılan hüquqi şəxsdir. Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarət yalnız qiymətli kağızların və törəmə maliyyə alətlərinin fond birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.
Fond birjası aşağıdakı bazarların ticarətini təşkil edir:
dövlət qiymətli kağızları bazarının;
korporativ qiymətli kağızlar bazarının;
törəmə maliyyə alətləri bazarının.

# 2. Qiymətli kağızlar haqqında məlumat

**2.1 Istiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı

**2.2 Istiqrazların valyutası:** AZN

**2.3 Istiqrazların təsbit olunan məhdudiyyətlər:** Nəzərdə tutulmayıb

**2.4 Istiqrazların təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların ödənilməsi zamanı istiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 14,5 (on dörd tam onda beş) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində hər kvartalda (hər üç təqvim ayından sonra) faiz almaq;

- Emitentin ləğvi, yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə emitent müflis elan olunduqda istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin ödənilməsini emitentdən tələb etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar

**2.5 Istiqrazın faiz dərəcəsi:** 14,5 (on dörd tam onda beş) faiz

**2.6 İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:**

- İstiqrazlar üzrə faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər kvartal (hər üç təqvim ayından sonra) ödənilir
- İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda ödəniləcək
- İstiqrazların ödəmə tarixi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcək. Belə yubanmaya görə faizlər və ya digər müavinatlar ödənilmir

**2.7 Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** təminatsızdır

**2.8 Istiqrazların geri satın alınma şərtləri:** istiqrazların geri satın alınması nəzərdə tutulmayıb

**2.9 Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:**
İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

**TF = (N*D*G/360)/100**

$$TF = (N*D*G/360)/100$$

**burada,**

**TF – Bir istiqraz üzrə toplanmış faizlər;**

**N – Bir İstiqrazın nominal dəyəri (1000 (min) manat);**

**D – İstiqrazların illik gəlirlik dərəcəsi (14,5 (on dörd tam onda beş faiz) %);**

**G –İstiqrazların ödəniş dövrünün müddəti (90 gün)**

Toplanmış faizin məbləği tam hesablanır. Bu zaman yuvarlaqlaşdırma riyazi yuvarlaqlaşdırma qaydasında aparılır.

İstiqrazlar üzrə faiz gəliri nağdsız qaydada faiz ödənişləri tarixində emissiyanın həyata keçirildiyi valyuta ilə, yəni AZN ilə ödənilir.

**2.10 İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı:** Yoxdur

**2.11 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təminatsızdır

**2.12.Istiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat.**

İstiqrazların yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin (bundan sonra – Fond Birjası) ticarət platformasında həyata keçirilir və alqı-satqı əqdləri Bakı Fond Birjası vasitəsi ilə bağlanılır. Bununla bağlı müraciət maliyyə bazarlarına nəzarət orqanı tərəfindən bu istiqrazların buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. İnvestisiya şirkəti vasitəsi ilə qiymətli kağızlarla alğı-satqı əqdləri Azərbaycan Respublikasının ərazisində Bakı Fond Birjasında bağlanılır.
Bakı Fond Birjasında qiymətli kağızlarla alğı-satqı əqdləri yalnız bu qiymətli kağızlar Bakı Fond Birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.

# 3. Risk faktorları

**3.1 Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları**: likvidlik riski, bazar riski

**3.2 Istiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları**: likvidlik riski, bazar riski, kredit, faiz dərəcəsinin, hüquqi və tənzimləmə riski, vergi riski

Bazar riski: Şirkət yalnız Azərbaycan bazarında fəaliyyət göstərir. Qeyd edilən bazarda rəqabətin artması, ölkədə siyasi və iqtisadi vəziyyətin pisləşməsi şirkətin fəaliyyəti üçün və onun götürülən öhdəliklərə müvafiq şəkildə xidmət etmək qabiliyyəti üçün problemlər yarada bilər.

Kredit riski: İstiqrazlara sərmayənin qoyulması şirkətin kredit riski ilə bağlıdır. Şirkət üçün götürülən öhdəliklərin vaxtında yerinə yetirilməsi ilə əlaqədar problemlər yarana bilər, bu da nominal dəyərin və ya faydanın gecikmə ilə köçürülməsi və/və ya defolt şəklində ifadə edilə bilər.

Hüquqi və tənzimləmə riski: Şirkət Azərbaycan ərazisində, həmin ölkənin qanunvericiliyinə uyğun olaraq fəaliyyət göstərir. Şirkət Azərbaycan Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən lisenziyalaşdırılmışdır. Qeyd edilən ölkənin qanunvericiliyinin və lisenziya tələblərinin dəyişdirilməsi şirkətin fəaliyyətini və onun gələcək planlarını ləngidə bilər.

Vergi riski: Azərbaycan Vergi Məcəlləsinin dəyişdirilməsi, eləcə də istiqrazı alanın rezident olduğu ölkənin vergi qanunvericiliyinin dəyişdirilməsi istiqrazı alanın gəlirinə mənfi təsir göstərə bilər.

Digər risk: Yuxarıda qeyd edilən risk faktorlardan əlavə, istiqrazı alan və şirkət mütəmadi olaraq şirkətin fəaliyyətinə və istiqrazı alanın gəlirinə mənfi təsir göstərə bilən digər risk faktorlarla üzləşir.

# 4. Təklif

**4.1 Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Nəzərdə tutulmayıb

**4.2 təklifin şərtlərinin təsviri:**

–İstiqrazlar kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-də hərrac vasitəsilə aparılacaq. İstiqrazların yerləşdirilməsinə başlanılması tarixinə ən azı 2 iş günü qalmış emitent və ya anderrayter qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və hərracın keçirilməsi şərtlərini elan edəcək və fond birjasına bu barədə yazılı bildiriş göndəriləcək. Məlumatlar emitentin və fond birjasının internet səhifəsində açıqlanacaq.

İstiqrazlar illik 14,5 (on dörd tam onda beş) faiz ilə təklif olunur, istiqrazların tədavül müddəti ərzində hər kvartaldan (üç təqvim ayından) bir faiz ödəniləcək.

İstiqrazların tədavül müddəti 3 (üç) ildir.

**4.3 Istiqrazın faiz dərəcəsi:** 14,5 (on dörd tam onda beş) faiz

**4.4 İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:**

- İstiqrazlar üzrə faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən hər kvartaldan (hər üç təqvim ayından) bir ödənilir
- İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda ödəniləcək

**4.5 emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** maraqların toqquşması müşahidə olunmur

**4.6 Istiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Bakı Fond Birjasının komissiyası: 0.04%, Milli Depozit Mərkəzinin komissiyası: 0.0125%, Broker komissiyası, ödəmə mənbəyindən vergi

# İstiqrazların emitenti və zamin (olduqda) barədə tələb olunan məlumat

## 1. Emitentin auditorları barədə məlumat

**1.3 .Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat;**

| | |
|---|---|
| Adı: | **KPMG Azerbaijan Limited** |
| Ünvan: | Port Baku Cənub Qülləsi,<br>12-cu mərtəbə, Neftçilər prospekti, 153<br>Bakı, AZ1010, Azərbaycan |
| Əlaqə: | Phone: +994124048910<br>Fax: +944 12 404 89 14 |

| | |
|---|---|
| Adı: | **RSM Aerbaijan** |
| Ünvan: | Demirchi Towers,<br>21-cu mərtəbə, Xocalı prospekti, 37<br>Bakı, AZ1010, Azərbaycan |
| Əlaqə: | Phone: +994124804571<br>Fax: +944 12 480 45 63 |

**1.4 .Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Xərclərin azaldılması ilə bağlı.

## 2. Seçilmiş maliyyə məlumatı

**2.1 .Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| AZN | 2017 | 2016 | 2015 |
|---|---|---|---|
| Cəmi aktivlər | 85 446 140.94 | 126 582 551.60 | 170 627 064.43 |
| Cəmi passivlər | 64 548 343.47 | 94 529 931.59 | 124 465 483.75 |
| Ümumi kapital | 20 879 797.47 | 32 052 620.01 | 46 161 580.68 |
| Gəlir (zərər) | -10 562 713.96 | -8 981 196.10 | 2 165 021.56 |

## 3. Emitent barədə məlumat

**3.1 .Emitentin tam adı, təşkilati-hüquqi forması;** "PARA" Bank olmayan kredit təşkilatı Açıq Səhmdar Cəmiyyəti

**3.2 .Emitentin dövlət qeydiyyatının rekvizitləri;** VÖEN – 9900004121

**3.3 .Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi;** Emitentin təşkilati-hüquqi forması dəyişilməmişdir.
2 dekabr 2016-cı il tarixində "Parabank"ASC adını və fəaliyyət növünü dəyişərək "PARA" BOKT ASC kimi yenidən dövlət qeydiyyatına alınmışdır.

**3.4 .Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları;**

Hüquqi ünvan: Azərbaycan Respublikası, AZ1022, Bakı şəhəri, Nəsimi Rayonu, Səməd Vurğun, ev 60, Açıq Səhmdar Cəmiyyəti

Faktiki ünvan: Bakı şəhəri, Səməd Vurğun, ev 60

Elektron poçt ünvanı: office@parabokt.az
Internet səhifəsi: http://www.parabokt.az
Əlaqə telefonları: +994 12 139

**3.5..Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə);**

Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən Cəmiyyət tərəfindən investisiyalar olmayıb.

**3.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:**

İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri mövcud deyil

**3.7 . Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat.**

İstiqrazların yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin (bundan sonra – Fond Birjası) ticarət platformasında həyata keçirilir və alqı-satqı əqdləri Bakı Fond Birjası vasitəsi ilə bağlanılır. Bununla bağlı müraciət maliyyə bazarlarına nəzarət orqanı tərəfindən bu istiqrazların buraxılışının dövlət qeydiyyatı və emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. İnvestisiya şirkəti vasitəsi ilə qiymətli kağızlarla alğı-satqı əqdləri Azərbaycan Respublikasının ərazisində Bakı Fond Birjasında bağlanılır.
Bakı Fond Birjasında qiymətli kağızlarla alğı-satqı əqdləri yalnız bu qiymətli kağızlar Bakı Fond Birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir.

## 4. Emitentin biznesinin icmalı

**4.1 .Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri;**

Fəaliyyətimizin əsas istiqaməti vətəndaşların daşınar və daşınmaz əmlakının girov götürülməsi müqabilində kreditlərin verilməsidir.

Girov qismində çıxış edən vasitələr tərəflərin razılığı əsasında lombard tərəfindən qiymətləndirilir.

Borcalan lombarda girov qoyulanları müəyyən bir müddətdən sonra borc məbləği və ona hesablanmış faizləri geri qaytarmaq şərtilə geri götürmək hüququna malikdir.

**4.2 .Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu;**

Yeni təqdim etdiyimiz məhsul lombard krediti məhsuludur.Q ızılın 100% dəyəri müqabilində istehlak üçün nağd pul kreditinin verilməsidir.

**4.3 .Emitentin rəqabət apardığı əsas bazarların təsviri:** Emitentin rəqabət apardığı əsas bazar bank olmayan kredit təşkilatları və istehlak krediti sahəsində fəaliyyət göstərən banklardır

**4.4 .Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Yoxdur

## 5. Digər təşkilatlarda iştirak

**5.1 .Emitentin digər hüquqi şəxslərdə qısa təsviri:** Emitentin 0.0036% "AZƏRTİKİNTİSERVİS" ASC-də iştirak payı mövcuddur.

**5.2 .Emitent daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Emitent heç bir qrupdan asılılığı yoxdur

## 6. Tendensiyalar barədə məlumat

**6.1 .Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Yoxdur.

**6.2 .Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat.**

Son iki ildə baş verən devalvasiyalar bank sistemində likvidliyin zəiflənməsi və kredit şərtlərinin sərtləşməsi ilə nəticələnmişdir. İqtisadi artım, maliyyə vəsaitlərinin cəlb edilməsi və kapitalın dəyəri ilə

bağlı qeyri-müəyyənliklər hələ də mövcuddur və bu, Şirkətin gələcək maliyyə nəticələrinə, maliyyə vəziyyətinə və biznes perspektivlərinə hazırda müəyyən edilə bilməyən dərəcədə mənfi təsir göstərə bilər.

Bunun nəticəsində emitent 2017-ci ildə 10,562,713.96 AZN zərər etmişdir.

Şirkət öz öhdəliklərini vaxtı-vaxtında yerinə yetirir.

## 7. Gəlir proqnozu

**7.1 .Emitent tərəfindən müəyyən edilən və proqnozun əsasını təşkil edən əsas fərziyyələr haqqında hesabat. Hesabatda emitentinin idarə heyətinin təsir edə biləcəyi və həmçinin idarə heyətinin təsirindən kənarda olan amillər və fərziyyələr arasındakı fərq aydın şəkildə göstərilməlidir;**

Əlavə olunub

## 8. Emitentin idarəetmə və nəzarət orqanları

**8.1 .Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə məlumatlar (adı, soyadı, atasının adı, funksiyaları)**

***Idarə Heyəti:***

**İdarə Heyətinin Sədri -** *Quliyev Vəli Eldar oğlu*

**İdarə Heyəti Sədrinin müavini -** *Hüseynov Rəcəb Məmməd oğlu*

**Baş Mühasib -** *Mehdiyeva Nigar Allahverdi gızı*

**İdarə Heyəti aşağıdakı işləri həyata keçirir:**

- Cəmiyyətin fəaliyyətini qanunvericiliyə müvafiq qurmaq məqsədi ilə qaydalar, təlimatlar və digər daxili əsasnamələr qəbul etmək;
- Cəmiyyətin büdcəsinin strateji istiqamətlərini müəyyən etmək;
- Cəmiyyətin daxili strukturunun təsdiq edilməsi və yeni struktur bölmələrinin yaradılması (filial və nümayəndəliklər istisna olmaqla);
- Cəmiyyətin ərazi filialları və nümayəndəliklərinin daxili nümunəvi strukturunu, nümunəvi ştat cədvəlini və işçilərin vəzifə maaşları sxemini təsdiq etmək;
- Cəmiyyətin xidmətlərinin təkmilləşdirilməsi və yeni xidmət növlərinin, o cümlədən Cəmiyyət tərəfindən təklif edilən məhsulları müəyyən etmək;
- Cəmiyyətin ştat vahidlərini təsdiq etmək;

- Cəmiyyətin daxili struktur bölmələrin əsasnamələrini və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatlarını (əmək funksiyalarını) hazırlamaq və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim etmək;

- Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlamaq və təsdiq üçün Müşahidə Şurasına təqdim etmək;

- Cəmiyyətin strateji planlarını hazırlamaq və təsdiq üçün Müşahidə Şurasına təqdim etmək;

- Cəmiyyətin strateji planının icrasını təmin etmək və icrası barədə Müşahidə Şurasına hesabat vermək;

- Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlər və təkliflər hazırlamaq, tədbirlər həyata keçirmək və Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərarlar qəbul etmək;

İdarə Heyətinin səlahiyyətlərinə həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi, bu Nizamnamə ilə idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələləri həll etmək;

Müşahidə Şurası Cəmiyyətə ümumi rəhbərliyi və nəzarəti həyata keçirən zaman İdarə Heyətinin carı işlərinə müdaxilə etmir. Bununla belə Müşahidə Şurası İdarə Heyətinin qərarlarını audit edə bilər.

**İdarə Heyətinin Sədri:**

İdarə Heyətinin işini təşkil etmək və onun iclaslarına sədrlik etmək;

- öz səlahiyyəti daxilində vəkalətnaməsiz Cəmiyyətin adından mülki və əmək müqavilələri bağlamaq, Cəmiyyəti üçüncü şəxslərlə münasibətlərdə təmsil etmək, Cəmiyyət adından məhkəmələrdə və digər orqanların qarşısında çıxış etmək, etibarnamələr vermək;

- Cəmiyyətin Nizamnaməsi və qüvvədə olan qanunvericiliklə müəyyənləşdirilən hədlərdə Cəmiyyətin əmlakı barədə sərəncam vermək;

- cari və risk yaratmayan əməliyyatlar üzrə qərarlar qəbul etmək;

- qüvvədə olan qanunvericilik və Cəmiyyətin Nizamnaməsi əsasında digər səlahiyyətləri həyata keçirmək.

- Hər hansı bir əqdin bağlanması nəticəsində İdarə Heyəti üzvünün şəxsi marağı ilə Cəmiyyətin mənafeyi ziddiyyət təşkil edərsə o, bu barədə Müşahidə Şurasına məlumat verməlidir. Həmin əqdin bağlanması yalnız Müşahidə Şurasının müvafiq qərarı əsasında həyata keçirilə bilər.

**Emitentin nəzarət orqanı:** Müşahidə Şurası

**Daxil olan şəxslər haqqında məlumat onların vəzifələri göstərilməklə**

***<u>Müşahidə Şurası:</u>***

**Müşahidə Şurasının Sədri -** *Poladov Rasim İbrahim oğlu*

**Müşahidə Şurasının üzvü –** *Əliyev Etibar Sahib oğlu*

**Müşahidə Şurasının üzvü –** *Məcidov Tahir Tələt oğlu*

Cəmiyyətin Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

Cəmiyyətin Müşahidə Şurası üç (3) üzvdən ibarətdir. Müşahidə Şurasının üzvləri üç (3) ildən artıq olmayan müddətə seçilir və növbəti müddətə yenidən seçilər bilər. Müşahidə Şurasının üzvləri muzdsuz əsaslarla fəaliyyət göstərir.

Cəmiyyətin Müşahidə Şurasının tərkibi Nizamnamədə nəzərdə tutulmuş sayın yarısına qədər azaldıqda, otuz təqvim günü ərzində Cəmiyyətin növbədənkənar Ümumi Yığıncağı çağırılaraq, Müşahidə Şurasına yeni üzvlər seçilməlidir.

**Müşahidə Şurasının müstəsna vəzifələri:**

- İdarə Heyətinin Sədri və üzvləri və Daxili Auditor ilə əmək müqavilələrini bağlamaq, onların vəzifə təlimatlarını təsdiq etmək;
- Şuranın iclaslarında qəbul olunmuş sənədləri təsdiq etmək;
- Şuranın iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək;
- verilmiş səlahiyyətlər daxilində səhmdarların adından Cəmiyyəti təmsil etmək;
- maraqların toqquşması məsələlərində Cəmiyyəti təmsil etmək

*Müşahidə Şurasının iclası aşağıdakı məsələlər barəsində qərar qəbul etmək səlahiyyətindir:*

- Cəmiyyətin idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən Cəmiyyətin İdarə Heyətindən hesabat almaq;
- Cəmiyyətin filial və nümayəndəliklərin açılması və bağlanması barədə qərarların qəbul edilməsi və onların əsasnamələrinin təsdiq edilməsi və rəhbərlərinin təyin edilməsi;
- Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;
- Səhmdarların Ümumi Yığıncağını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə İdarə Heyətinin və Daxili Auditorun tələbi ilə və təklif etdiyi gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini müəyyən etmək;
- Cəmiyyət tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bu pozuntu barəsində səhmdarların Ümumi Yığıncağını, İdarə Heyətini və Daxili Auditoru xəbərdar etmək, müvafiq dövlət orqanına qanunvericiliyinin pozulması faktları barədə bildiriş göndərmək;
- Cəmiyyət ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda Cəmiyyəti idarə və təmsil etmək;
- kənar və daxili auditorların, habelə müvafiq dövlət orqanı tərəfindən yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
- Cəmiyyətin etibarlı prudensial idarə olunmasını təmin etmək üçün zəruri qaydalar və daxili əsasnamələr qəbul etmək;
- qanunvericiliyə uyğun olaraq, Cəmiyyətin Nizamnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək;
- aidiyyəti şəxslərlə Cəmiyyətin aktivlərinin 5%-dək məbləğdə olan əqdlərin bağlanmasına icazə vermək.

**8.1.3 .xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Yoxdur

## 9. İdarə heyətinin işgüzar praktikası

**9.1 .Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:** Yoxdur.

**9.2 .Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə izahat:**

Emitent Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş korporativ idarəetmə standartlarına uyğundur. Emitentin təşkilati-hüquqi forması açıq səhmdar cəmiyyət olduğunu nəzərə alaraq, emitent müvafiq illik hesabatlarını ictimaiyyətə açıqlayır. Emitentin idarəetmə strukturu ilə bu Emissiya Prospektinin 8-ci bəndində göstərilib.

## 10 . Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**10.1.Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

**Tam adı:** Quliyev Eldar Elman oğlu;

**Emitentin nizamnamə kapitalında payı:** 36 556 səhm (18.8011%)

O cümlədən,

Adi səmlər**:** 31 290 səhm (21.3829%)

Imtiyazlı səmlər: 5 266 səhm (10.9473%)

Emitentdə tutduğu vəzifə: Idarə Heyətinin Baş müşaviri

**Tam adı:** Quliyeva Alevtina Vəli qızı;

**Emitentin nizamnamə kapitalında payı:** 31 268 səhm (16.0815%).

O cümlədən,

Adi səmlər: 24 573 səhm (16.7926%)

Imtiyazlı səhmlər: 6 695 səhm (13.9181%)

Emitentdə tutduğu vəzifə: yoxdur

**Tam adı:** Quliyev Vəli Eldar oğlu;

**Emitentin nizamnamə kapitalında payı:** 23 532 səhm (12.1028%)

O cümlədən,

Adi səmlər: 23 532 səhm (12.1028%)

İmtiyazlı səhmlər: yoxdur

Emitentdə tutduğu vəzifə: İdarə Heyətinin Sədri

**Tam adı:** Hacıyeva Tamilla Fərman qızı

**Emitentin nizamnamə kapitalında payı:** 24 633 səhm (12.669%)

O cümlədən,

Adi səmlər: 24 458 səhm (16.7140%)

Imtiyazlı səhmlər: 175 səhm (0.3638%)

Emitentdə tutduğu vəzifə**:** yoxdur

**Tam adı:** Quliyev Elnur Eldar oğlu

**Emitentin nizamnamə kapitalında payı:** 22 153 səhm (11.3935%)

O cümlədən,

Adi səmlər: 19 662 səhm (13.4366%)

Imtiyazlı səmlər: 2 491 səhm (5.1785%)

Emitentdə tutduğu vəzifə**:** Təhlükəsizlik departamentinin direktoru

Yuxarıda qeyd edilən şəxslərin vətəndaşlığı Azərbaycalıdır.

**10.2.Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri;**

Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarət və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlər qanunvericilik çərçivəsində həyata keçirilir.

Səhmdarların Ümumi Yığıncağının Qərarları sadə səs çoxluğu ilə qəbul edilir. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-3.5-ci maddəsinə əsasən səhmdarların ümumi yığıncağında səsvermə “bir səsli səhm – bir səsdir” prinsipi əsasında həyata keçirilir. Qanunvericiliklə və Emitentin Nizamnaməsi ilə nəzərdə tutulmuş bəzi məsələlər müxtəlif səs çoxluğu ilə həll olunur. Belə ki,

Səhmdarların Növbədənkənar Ümumi Yığıncağı səsvermə hüququ olan səhmlərin azı 5 (beş) % faizinin sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və ya İdarə Heyətinin tələbi ilə çağrıla bilər.

**10.3.Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Yoxdur

## 11 . Emitentin maliyyə məlumatları

**11.1.Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:** Əlavə olunub

**11.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Əlavə olunub

**11.3.Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı qeyd olunları özündə əks etdirməlidir (maliyyə vəziyyəti haqqında hesabatı, mənfəət və zərər haqqında hesabatı, kapitalda dəyişiklik haqqında hesabatı, nağd pul vəsaitlərinin hərəkəti haqqında hesabatı, uçot siyasətləri və izahlı qeydləri):** Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmışdır

**11.4.Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda);** yoxdur

**11.5.Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir;** yoxdur

**11.6.Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarım illik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Əlavə olunub

**11.7.Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Yoxdur

**11.8.Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** Yoxdur

## 12 . Emitent haqqında əlavə məlumatlar

**12.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu;**

**Emitentin nizamnamə kapitalı və tərkibi:**

Nizamnamə kapitalı: 38,887,000.00 AZN təşkil edir

Adi adlı səhm: 146,332 ədəd

İmtiyazlı səhm: 48,103 ədəd

Nominal dəyər: 200 AZN

**İmtiyazlı səhmlərin hüquqları:**

Cəmiyyətinin nizamnaməsində aşağıdakı məsələlər üzrə qərarların qəbul edilməsində imtiyazlı səhm sahibi səs hüququna malikdir:

- səhmdar cəmiyyətinin yenidən təşkil edilməsi;
- səhmdar cəmiyyətinin ləğv edilməsi;
- Səhmdara məxsus olan imtiyazlı səhm növü üzrə hüquqlarmı məhdudlaşdıran dəyişiklik və əlavələrin nizamnamədə edilməsi.

**Adi səhmlərin hüquqları:**

- cəmiyyətin idarə edilməsində bu Məcəllə, digər qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
- qanunvericiliklə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
- cəmiyyətin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;
- cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- cəmiyyətin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək (AR Mülki Məcəlləsinin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və onun protokolunun surətini tələb etmək;
- cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- cəmiyyətin xalis mənfəətindən dividend almaq;
- cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;
- icra orqanının və direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin səhlənkarlığına və səhmdar cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;
- cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək;
- bağlanmış əqd nəticəsində cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;
- bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq;
- AR Mülki Məcəlləsində və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.
- **12.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:**

**12.2.1 .Fəaliyyət və məqsədlərin təsviri;**

Cəmiyyətin əsas fəaliyyət növləri aşağıdakılardır:

a) daşınar və daşınmaz əmlakın girovu, girov əmanəti, öhdəliklərin icrasına təminatların, qarantiya, zaminlik və qanunvericiliklə nəzərdə tutulmuş digər üsullarla təmin olunan və ya təminatsız kreditlərin verilməsi;

b) borc öhdəliklərinin buraxılması, emissiyası və alğı-satqısı (faktorinq, forfeytinq);

c) lizinq;

d) veksellərin uçotu;

e) qarantiyaların verilməsi;

f) sığorta agenti xidmətinin göstərilməsi;

g) borcalanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi;

Cəmiyyət qanunvericilik ilə qadağan olunmayan başqa fəaliyyət növləri ilə də məşğul ola bilər.

Cəmiyyət xüsusi icazə (lisenziya) alınmasını tələb edən müəyyən fəaliyyət növləri ilə yalnız bu cür icazənin (lisenziyanın) alınmasından sonra məşğul ola bilər.

**12.2.2 .İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı;**

İdarə Heyəti aşağıdakı işləri həyata keçirir:

- Cəmiyyətin fəaliyyətini qanunvericiliyə müvafiq qurmaq məqsədi ilə qaydalar, təlimatlar və digər daxili əsasnamələr qəbul etmək;
- Cəmiyyətin büdcəsinin strateji istiqamətlərini müəyyən etmək;
- Cəmiyyətin daxili strukturunun təsdiq edilməsi və yeni struktur bölmələrinin yaradılması (filial və nümayəndəliklər istisna olmaqla);
- Cəmiyyətin ərazi filialları və nümayəndəliklərinin daxili nümunəvi strukturunu, nümunəvi ştat cədvəlini və işçilərin vəzifə maaşları sxemini təsdiq etmək;
- Cəmiyyətin xidmətlərinin təkmilləşdirilməsi və yeni xidmət növlərinin, o cümlədən Cəmiyyət tərəfindən təklif edilən məhsulları müəyyən etmək;
- Cəmiyyətin ştat vahidlərini təsdiq etmək;
- Cəmiyyətin daxili struktur bölmələrin əsasnamələrini və Cəmiyyətin əməkdaşlarının vəzifə təlimatlarını (əmək funksiyalarını) hazırlamaq və təsdiq olunması üçün Müşahidə Şurasına təqdim etmək;
- Cəmiyyətin şəxsi heyətinin təhsil alması üzrə proqramlar və tədbirlərə aid təkliflər hazırlamaq və təsdiq üçün Müşahidə Şurasına təqdim etmək;
- Cəmiyyətin strateji planlarını hazırlamaq və təsdiq üçün Müşahidə Şurasına təqdim etmək;

- Cəmiyyətin strateji planının icrasını təmin etmək və icrası barədə Müşahidə Şurasına hesabat vermək;

- Cəmiyyətin fəaliyyəti ilə bağlı digər zəruri sənədlər və təkliflər hazırlamaq, tədbirlər həyata keçirmək və Cəmiyyətin daxili fəaliyyət məsələləri üzrə qərarlar qəbul etmək;

İdarə Heyətinin səlahiyyətlərinə həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi, bu Nizamnamə ilə idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələləri həll etmək;

Müşahidə Şurası Cəmiyyətə ümumi rəhbərliyi və nəzarəti həyata keçirən zaman İdarə Heyətinin carı işlərinə müdaxilə etmir. Bununla belə Müşahidə Şurası İdarə Heyətinin qərarlarını audit edə bilər.

İdarə Heyətinin Sədri:

İdarə Heyətinin işini təşkil etmək və onun iclaslarına sədrlik etmək;

- öz səlahiyyəti daxilində vəkalətnaməsiz Cəmiyyətin adından mülki və əmək müqavilələri bağlamaq, Cəmiyyəti üçüncü şəxslərlə münasibətlərdə təmsil etmək, Cəmiyyət adından məhkəmələrdə və digər orqanların qarşısında çıxış etmək, etibarnamələr vermək;

- Cəmiyyətin Nizamnaməsi və qüvvədə olan qanunvericiliklə müəyyənləşdirilən hədlərdə Cəmiyyətin əmlakı barədə sərəncam vermək;

- cari və risk yaratmayan əməliyyatlar üzrə qərarlar qəbul etmək;

- qüvvədə olan qanunvericilik və Cəmiyyətin Nizamnaməsi əsasında digər səlahiyyətləri həyata keçirmək.

- Hər hansı bir əqdin bağlanması nəticəsində İdarə Heyəti üzvünün şəxsi marağı ilə Cəmiyyətin mənafeyi ziddiyyət təşkil edərsə o, bu barədə Müşahidə Şurasına məlumat verməlidir. Həmin əqdin bağlanması yalnız Müşahidə Şurasının müvafiq qərarı əsasında həyata keçirilə bilər.

Emitentin nəzarət orqanı: Müşahidə Şurası

Cəmiyyətin Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

Cəmiyyətin Müşahidə Şurası üç (3) üzvdən ibarətdir. Müşahidə Şurasının üzvləri üç (3) ildən artıq olmayan müddətə seçilir və növbəti müddətə yenidən seçilər bilər. Müşahidə Şurasının üzvləri muzdsuz əsaslarla fəaliyyət göstərir.

Cəmiyyətin Müşahidə Şurasının tərkibi Nizamnamədə nəzərdə tutulmuş sayın yarısına qədər azaldıqda, otuz təqvim günü ərzində Cəmiyyətin növbədənkənar Ümumi Yığıncağı çağırılaraq, Müşahidə Şurasına yeni üzvlər seçilməlidir.

Müşahidə Şurasının müstəsna vəzifələri:

- İdarə Heyətinin Sədri və üzvləri və Daxili Auditor ilə əmək müqavilələrini bağlamaq, onların vəzifə təlimatlarını təsdiq etmək;

- Şuranın iclaslarında qəbul olunmuş sənədləri təsdiq etmək;

- Şuranın iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək;

- verilmiş səlahiyyətlər daxilində səhmdarların adından Cəmiyyəti təmsil etmək;
- maraqların toqquşması məsələlərində Cəmiyyəti təmsil etmək

Müşahidə Şurasının iclası aşağıdakı məsələlər barəsində qərar qəbul etmək səlahiyyətindir:

- Cəmiyyətin idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən Cəmiyyətin İdarə Heyətindən hesabat almaq;
- Cəmiyyətin filial və nümayəndəliklərin açılması və bağlanması barədə qərarların qəbul edilməsi və onların əsasnamələrinin təsdiq edilməsi və rəhbərlərinin təyin edilməsi;
- Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;
- Səhmdarların Ümumi Yığıncağını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə İdarə Heyətinin və Daxili Auditorun tələbi ilə və təklif etdiyi gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini müəyyən etmək;
- Cəmiyyət tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bu pozuntu barəsində səhmdarların Ümumi Yığıncağını, İdarə Heyətini və Daxili Auditoru xəbərdar etmək, müvafiq dövlət orqanına qanunvericiliyinin pozulması faktları barədə bildiriş göndərmək;
- Cəmiyyət ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda Cəmiyyəti idarə və təmsil etmək;
- kənar və daxili auditorların, habelə müvafiq dövlət orqanı tərəfindən yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;
- Cəmiyyətin etibarlı prudensial idarə olunmasını təmin etmək üçün zəruri qaydalar və daxili əsasnamələr qəbul etmək;
- qanunvericiliyə uyğun olaraq, Cəmiyyətin Nizamnaməsi ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək;
- aidiyyəti şəxslərlə Cəmiyyətin aktivlərinin 5%-dək məbləğdə olan əqdlərin bağlanmasına icazə vermək.

Daxili Auditor üç (3) ildən çox olmayan müddətə Ümumi Yığıncaq tərəfindən təyin edilir və növbəti müddətə yenidən seçilə bilər.

*Daxili Auditorun aşağıdakı səlahiyyətləri var:*

- Cəmiyyətin audit siyasətini və strategiyasını müəyyən etmək;
- daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;
- kənar auditorun təyin edilməsi ilə bağlı təkliflər vermək;
- daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına, Müşahidə Şurasına və İdarə Heyətinə təkliflər vermək;
- Cəmiyyətin bütün daxili qaydaları və strategiyalarını nəzərdən keçirmək və tövsiyələrini vermək;
- Cəmiyyətin struktur bölmələri üzrə xüsusi audit yoxlamaları və Auditlərin keçirilməsini sifariş etmək;
- İdarə Heyətinin və Müşahidə Şurasının iclaslarında səs hüququna malik olmadan iştirak etmək;

- Səhmdarların növbədənkənar Ümumi Yığıncağının çağırılmasını tələb etmək.
- Daxili Auditoru öz vəzifələrini başqalarına həvalə etmək hüququ yoxdur.

**12.3. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** yoxdur

# İstiqrazlar barədə tələb olunan məlumat

## 1. Əsas məlumat

**1.1 .Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** yoxdur

**1.2 .İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** kredit portfelinin həcminin artırılması, mənfəətin əldə edilməsi.

**1.3 .Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Əlavə mənbələr nəzərdə tutulmayıb.

**1.4 .Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Nəzərdə tutulmayıb.

## 2. İstiqrazlar barədə məlumat

**2.1 Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar, "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirmə haqqında" Qaydalar.

**2.2 İstiqrazların növü:** Faizli, təminatsız, adlı, sənədsiz

**2.3 Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

İstiqrazların miqdarı: 5 000 (beş min) ədəd

Hər bir istiqrazın nominal dəyəri: 1000 (bir min) AZN

İstiqrazların buraxılışının ümumi məbləği (nominal dəyərlə): 5 000 000 (beş milyon)

**2.4 İstiqrazların valyutası:** AZN

**2.5 İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** İstiqrazların hüqaqlarının uçotu Milli Depozit Mərkəzi tərəfindən aparılacaq

**2.6 Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Yoxdur

**2.7 .İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

**İstiqrazların sahibi aşağıdakı hüquqlara malikdir:**

İstiqrazların ödənilməsi zamanı istiqrazların nominal dəyərini emitendən almaq

istiqrazların tədavül müddəti ərzində hər kvartalda (hər üç təqvim ayından sonra) faiz almaq;

Emitentin ləğvi və yaxud yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin ödənilməsini emitentdən tələb etmək

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar

İstiqrazların ödəmə tarixi qeyri-iş gününə təsdüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcək. Belə yubanmaya görə faizlər və ya digər müavinatlar ödənilmir.

İstiqrazların tədavülündə məhdudiyyətlər nəzərdə tutulmayıb.

**2.8 İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** 14,5 (on dörd tam onda beş) faiz

**2.9 İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** istiqrazların tədavül müddəti ərzində hər kvartalda (hər üç təqvim ayından sonra) faiz almaq.Tədavül müddəti 3 (üç) il müəyyən edilib. İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda ödəniləcək.

**2.10 Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** yoxdur

**2.11 Ödənişlər üzrə hesablaşma agentinin adı:** Emitentin ödəniş agenti yoxdur.

İstiqrazlar üzrə ödənişləri emitent özü edəcək. İstiqrazların nominal dəyəri istiqrazların ödəmə günündən bir gün əvvəlki "BFB" QSC-nin əməliyyat gününün bağlandığı andan etibarən istiqraz sahibləri hesab edilən subyektlərə ödənilir.

İstiqrazların ödəmə tarixi qeyri-iş gününə təsadüf edərsə, ödənişlər növbəti iş günü həyata keçiriləcək. Belə yubanmaya görə faizlər və ya digər müavinatlar ödənilmir.

**2.12 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** təminatsızdır

**2.13 İstiqrazların geri satın alınmasının şərtləri:** nəzərdə tutulmayıb

**2.14 Gəlirlik dərəcəsi və onun hesablanması qaydası:**

TF = (N*D*G/360)/100

burada,

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri (1000 (bir min) manat);

D – İstiqrazların illik gəlirlik dərəcəsi (14,5 (on dörd tam onda beş) %);

G –İstiqrazların ödəniş dövrünün müddəti (90 gün)

**2.15 İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Yoxdur

**2.16 İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** "PARA" BOKT ASC-nin Müşahidə Şurasının qərarı əsasında, 22.11. 2018-ci

**2.17 İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Yoxdur

**2.18 İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Qanunverilicikdə nəzərdə tutulmuş qaydada ödəmə mənbəyindən vergi tutulur

# 3. Təklifin şərtləri

3.1 .Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri: İstiqrazlar kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-də hərrac vasitəsilə aparılacaq. İstiqrazların yerləşdirilməsinə başlanılması tarixinə ən azı 2 iş günü qalmış emitent və ya anderrayter qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və hərracın keçirilməsi şərtlərini elan edəcək və fond birjasına bu barədə yazılı bildiriş göndəriləcək. Məlumatlar emitentin və fond birjasının internet səhifəsində açıqlanacaq.

**3.2 .Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə (həmin dəyişikliklərin qəbul edilməsi barədə qərar, dəyişikliklərin mətni və əsaslandırılma əlavə edilməklə) müvafiq qərarın qəbul edildiyi gündən beş iş günü ərzində nəzarət orqanına təqdim ediləcək.

**3.3 .Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** Nəzərdə tutulmayıb

**3.4 .İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:**

**3.4.1 .İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazlar hərrac vasitəsilə yerləşdiriləcək.

**3.4.2 Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti:** İstiqrazlar hərrac vasitəsilə yerləşdiriləcək.

**3.4.3 Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləğini:** İstiqrazlar hərrac vasitəsilə yerləşdiriləcək.

**3.6 .İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası;**

İstiqrazların dəyəri nağd və köçürmə yolu ilə  milli valyutada manatla ödənilir. İqrazların alınması anderrayter vasitəsilə həyata keçirilir. Bu vəsaitlər Bakı Fond birjasında alğı-satqı əqdinin keçirilmə vaxtından gec olmayaraq Milli Depozit Mərkəzinin (bundan sonra Mərkəzi Depozitar)  Azərbaycan manatı ilə ödənişləri üçün nəzərdə tutulmuş klirinq hesabına köçürülməlidir.  Müştəri tərəfindən hesab üzrə sərəncam verildiyi andan investisiya şirkəti müştərinin "depo" hesabında mövcud olan və həmin sərəncamda göstərilən qiymətli kağızlar barədə məlumat almaq hüququna malikdir.

**3.7 .Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** fiziki və hüquqi şəxslər.

**3.8 .İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqrazların satışının başlaması barədə 2 (iki) iş günü əvvəl investorlara bildiriş göndəriləcək.

**3.9 .İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat-istiqrazın təklif qiyməti-**1000 (bir min) manatdır.

**3.10 .İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Broker komissiyası, MDM komissiyası- 0.0125%, BFB komissiyası – 0.0125%

**3.11 İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı:**

**İstiqrazlar öhdəlik götürmədən yerləşdiriləcək.**

Tam adı: “PAŞA Kapital İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti

Qısaldılmış adı: “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC

Hüquqi ünvan: Bakı şəh., Lev Tolstoy, ev 170

Telefon: (99412) 496-50-00

Faks: (99412) 496-50-00

E-mail: office@pashacapital.az

VÖEN: 1402281511

İnvestisiya fəaliyyətinə lisenziyası:

- Investisiya şirkəti fəaliyyətinin müddətsiz həyata keçirilməsi üçün 9 mart 2016-cı il tarixdə 088806 nömrəli lisenziya Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən verilmişdir.

Xidmət haqqı: 2 500 AZN

**3.12. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** İstiqrazların qeydiyyata alındıqdan 3 (üç) iş günü ərzində anderrayter müqaviləsi bağlanıcaqdır.

# 4. Ticarətə buraxılma və onun tənzimlənməsi

**4.1 .İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların yerləşdirilməsi “Bakı Fond Birjası” QSC-nin (bundan sonra – Fond Birjası) ticarət platformasında həyata keçirilir və alqı-satqı əqdləri Bakı Fond Birjası vasitəsi ilə bağlanılır. Bununla bağlı müraciət maliyyə bazarlarına nəzarət orqanı tərəfindən bu istiqrazların buraxılışının dövlət qeydiyyatı və

emissiya prospekti təsdiq edildikdən sonra baş tutmalıdır. İnvestisiya şirkəti vasitəsi ilə qiymətli kağızlarla alğı-satqı əqdləri Azərbaycan Respublikasının ərazisində Bakı Fond Birjasında bağlanılır.

Bakı Fond Birjasında qiymətli kağızlarla alğı-satqı əqdləri yalnız bu qiymətli kağızlar Bakı Fond Birjasının daxili qaydalarına əsasən kütləvi ticarətə qəbulundan sonra həyata keçirilir. Qanunvericiliyə əsasən birjada ticarət yalnız birja üzvləri arasında təşkil olunur. BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Qiymətli kağızlar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin hüquqi-normativ aktları və BFB-nin nizamnaməsi və daxili qaydaları əsasında təşkil edilmişdir.

- Yerləşdiyi ünvan: AZ1025, Bakı, Xətai rayonu, Babək pr, Ə.Quliyev 11/31, Babək Plaza
- Əlaqə telefonları: (+994 12) 488-05-80 ; (+994 12) 498-98-20 ( dax: 100)
- Faks: (+994 12) 493-77-93
- Elektron poçtun ünvanı: info@BFB.az
- İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bfb.az

**4.2 .Market meyker(lər) barədə məlumat:** Yoxdur

# 5. Kredit reytinqləri

**5.1 .Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Kredit reytinq mövcud deyil